# Magistral boru kəmərlərinin, körpülərin, hidrotexniki qurğuların və yüksəkgərginlikli elektrik hava xətlərinin mühafizəsinin gücləndirilməsinə dair bəzi tədbirlər barədə

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Neft və qaz boru kəmərlərinin, yüksəkgərginlikli elektrik hava xətlərinin, körpülərin və hidrotexniki qurğuların mühafizəsi, onların təhlükəsiz və etibarlı istismarı üçün normal şəraitin yaradılması və baş verə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə çay keçidlərinin yuxarı və aşağı axarları boyunca 500 metrlik məsafədə faydalı qazıntıların, partlayışların, torpaq qazma işlərinin aparılması, çay yatağı materiallarının çıxarılması üçün aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən torpaq sahələrinin ayrılması, lisenziya və icazələrin verilməsi dayandırılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 11, maddə 957; 2006-cı il, № 7, maddə 647, № 9, maddə 822; 2008-ci il, № 5, maddə 432) ilə təsdiq edilmiş «İstismar olunan ixrac neft boru kəmərlərinin «Mühafizə Zonası»nın müəyyənləşdirilməsi Qaydaları»na aşağıdakı məzmunda 5-ci bənd əlavə edilsin:

«5. Məsləhətləşmə zonası

Çay keçidinin yuxarı və aşağı axarları üçün 3 kilometrlik məsləhətləşmə zonası nəzərdə tutulur. Bu zona daxilində çay yatağında çay axarına təsir edəcək və eroziya ilə nəticələnə biləcək hər hansı fəaliyyətin aparılması, bənd və maneələrin tikilməsi üçün lisenziya, icazə və ya səlahiyyətlər verilməmişdən əvvəl istismarçı təşkilat xəbərdar edilməlidir. İstismarçı təşkilat öz növbəsində, çay keçidi üzrə belə fəaliyyətlərin nəticələri haqqında dövlət təşkilatlarına məlumat və məsləhət verməlidir.».

3. 5-ci və 6-cı bəndlər müvafiq olaraq 6-cı və 7-ci bəndlər hesab edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 20 avqust 2008-ci il
№191